# Şəhidlərin xatirəsinə ithaf olunmuş kitab

**"Dövlət ittihamçısı" adlı dərs vəsaiti Azərbaycanda hüquq elminin inkişafına və hüquqşünas kadrların hazırlanmasına dəyərli töhfədir. Kitabın müəllifləri Şöhlət Kərimov və Elçin Həsənovdur.**




Kitab Milli Aviasiya Akademiyasının məzunları olan, İkinci Qarabağ savaşında torpaqlarımız uğrunda qəhrəmanlıqla döyüşüb şəhidlik zirvəsinə ucalan Ağayev Şahin Azər oğlunun, Məmmədov Vüsal Aftandil oğlunun, Məmmədov Fuad Valeri oğlunun və Mənəfov İbrahim Mövsüm oğlunun əziz xatirəsinə ithaf olunub.

Dərs vəsaiti üç fəsildən ibarətdir. Birinci fəsildə cinayət mühakimə icraatının məhkəmə mərhələsində dövlət ittihamının həyata keçirilməsinin nəzəri və hüquqi əsasları araşdırılıb. Bu fəsildə dövlət ittihamının anlayışından, qanunauyğunluq əsasında həyata keçirilməsindən, ittihamdan imtina edilməsi prosesində sübut fəaliyyətinin aparılmasından bəhs olunub, dövlət ittihamçısı subutetmə subyekti kimi təhlil edilib.

"Məhkəmə iclasına hazırlıq mərhələsində dövlət ittihamının həyata keçirilməsi" adlı ikinci fəsildə dövlət ittihamçısının məhkəmə iclasına hazırlaşma səlahiyyətlərinin təsnifatı verilib. Qeyd olunan fəsildə təhlil olunan başqa bir məsələ isə məhkəmənin hazırlıq iclasında vəsatət vermək hüququdur.

Dərs vəsaitinin üçüncü fəsli "Məhkəmənin işə baxılma mərhələsində dövlət ittihamının həyata keçirilməsi" adlanır. Müəlliflər məhkəmə prosesi zamanı dövlət ittihamının həyata keçirməsini təhlil ediblər. Bu fəsildə həmçinin birinci instansiya məhkəməsində dövlət ittihamçısının nitqinin məzmunu və mahiyyəti araşdırılıb.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

Azərbaycan.- 2023.- 6 aprel.- S.10.